Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
09 iyun 2017-ci il №80 (3093)


(Əvvəli səh.4-də)

# MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN BANİSİ, XİLASKARI VƏ QURUCUSU - HEYDƏR ƏLİYEV



**Heydər Əliyev harada, hansı vəzifədə olubsa, xalqın ümid yeri, pənahı olub və milyonlarla insanın nəzərləri bir ümid çırağı kimi, bir haqq-ədalət carçısı kimi ona dikilib.**

1982-ci ilin dekabrında Heydər Əliyev Moskvaya Siyasi Büro üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilərkən, o vaxtkı Dzerjinski adına (indiki Şəhriyar adına mədəniyyət sarayı) sarayda yolasalma mərasimi keçirilirdi. Televiziya ilə birbaşa translyasiya edilən həmin yığıncaqda iştirak edən insanların həm sevinc, həm də kədərlə axıtdıqları göz yaşları bir-birinə qarışmışdı. İnsanlar sevincdən göz yaşını ona görə tökürdü ki, son 70 ildə ilk dəfə olaraq Azərbaycan oğlu belə yüksək vəzifəyə qalxırdı. İnsanları kədərləndirən isə onun doğma respublikanı tərk etməsi idi. Bu, ümumxalq məhəbbətinin bariz nümunəsi idi. Daha sonra 1987-ci ilin oktyabrında Heydər Əliyev Moskvada tutduğu vəzifələrdən azad edilərkən bu hadisəni bütün Azərbaycan xalqı böyük kədər, qəm-qüssə hissi ilə qarşıladı.

Sonra cəmi üç il ərzində (1987-90-cı illər) Heydər Əliyev dövlət vəzifəsində olmayıb. Azərbaycanın son problemlərinin əksəriyyətinin də bünövrəsi məhz həmin illərdə qoyuldu. Azərbaycan xalqı həmin dövrdə köks ötürərək deyirdi: "Əgər Heydər Əliyev vəzifədə olsaydı, bizim başımıza bu müsibətlər gəlməzdi". Taleyin hökmü ilə 1990-cı ilin iyununda Naxçıvana gələn Heydər Əliyev tezliklə yenidən siyasi meydana qayıtdı. Azərbaycan Ali Sovetinin deputatı seçilən gündən Ali Sovetin sessiyalarında millət vəkili kimi Azərbaycanı milli müstəqilliyə aparan Konstitusiya sənədlərinin qəbul olunmasını təklif etdi. Xalqı "referendum" yolu ilə SSRİ tərkibində saxlamağa çalışan respublika rəhbərliyinin səsinə səs verməməyə çağırdı. Dağlıq Qarabağın faktiki olaraq Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi məqsədini qarşılarına qoyan ermənipərəst qüvvələrin planlarını alt-üst etdi. Naxçıvan Ali Məclisinin sessiyalarında isə bilavasitə onun rəhbərliyi ilə Azərbaycanın müstəqilliyinin əsasını qoyan çox mühüm əhəmiyyətli sənədlər qəbul edildi.

Heydər Əliyevin oturduğu Naxçıvan Ali Məclisinin binası faktiki olaraq Azərbaycan milli azadlıq hərəkatının qərargahına çevrildi. Həmin vaxt Azərbaycanın paytaxtı Bakıda hakimiyyət uğrunda amansız mübarizə gedirdi, moskvapərəst A.Mütəllibov müstəqillik haqqında qətiyyən düşünmürdü. O, ölkəni faciələrlə, vətəndaş müharibəsi ilə üz-üzə qoyub Moskvaya qaçdı. Daha sonra Azərbaycanın müstəqilliyinə tərəfdar olan, lakin bu müstəqilliyi əldə etməyin və qoruyub-saxlamağın üsul və vasitələrini bilməyən, müstəqilliyə mane olmaq istəyən qüvvələrlə bacarmayan, hakimiyyət uğrunda mübarizə aparan öz yaxın ətrafının iddialarının qarşısında aciz qalan Ə.Elçibəy də Azərbaycanın müstəqilliyini təmin edə bilmədi. Sonda o da öz vəzifəsini qoyub anadan olduğu doğma Kələki kəndinə getməyə məcbur oldu.

**Bu sözləri yazmaqda məqsədim ondan ibarətdir ki, bu gün Azərbaycanda "xalq hərəkatı", "milli azadlıq hərəkatı" ifadələrini tez-tez dillərində əzbər edən, özlərini isə bu hərəkatın fəal iştirakçıları və rəhbərləri hesab edən, SSRİ-nin guya onlar tərəfindən dağıdıldığını və Azərbaycanın müstəqillik qazanmasını öz adlarına çıxan bəzi müxalifət nümayəndələrinə onu xatırlatmaqdır ki, onların özlərini lider adlandırması ilə xalqın əsl lider kimi qəbul etdiyi və tanıdığı şəxsiyyət arasında böyük fərq var. 1988-ci ildə başlanan xalq hərəkatının da, 1990-cı il 20 yanvardan etibarən başlanan milli azadlıq hərəkatının da əsl və həqiqi lideri, rəhbəri əvəzolunmaz ictimai-siyasi xadim olan Heydər Əliyev olmuşdur.**

Heydər Əliyev bəzi dövlət başçıları və xalq hərəkatının iştirakçısı olan insanlar kimi millət, milli dövlət, müstəqillik, milli birlik, milli ləyaqət, milli ideologiya, milli dövlətçilik ifadələrini tez-tez işlətməklə özünə hörmət qazanmaq fikrində olmayıb. Əksinə dərin düşüncəyə söykənən müdrik fəaliyyəti ilə addım-addım, nəzərə çarpmadan Azərbaycanı milli müstəqilliyə doğru aparıb. SSRİ dağıldıqdan sonra isə yaranmış tarixi şəraiti nəzərə alaraq müstəqillik bayrağını məhz o özü ilk dəfə olaraq qaldırıb.

Heydər Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir və bu müstəqilliyin əldə olunmasında hər hansı qrupun, hərəkatın, qüvvənin müstəsna xidmətləri olduğunu heç vəchlə qəbul etmək olmaz. Bu səmimi sözlərin doğruluğunu qəbul etməklə bərabər onu deməliyik ki, Azərbaycanın müstəqilliyinin qazanılması və qorunub-saxlanması uğrunda mübarizənin rəhbəri və bayraqdarı elə məhz Heydər Əliyevdir.

Mən bir daha ulu öndər Heydər Əliyevin belə bir fikrini vurğulamaq istəyirəm ki, Azərbaycanın müstəqilliyinin qorunub-saxlanması onun əldə edilməsindən çox-çox çətindir. Son 80 illik müstəqillik tariximizdən çıxarmalı olduğumuz ən əsas ibrət dərsi odur ki, Heydər Əliyev həm müstəqilliyimizin qazanılmasında , həm onun qurulmasında , həm də onun qorunub-saxlanmasında və əbədi yaşamasında əvəzsiz rol oynamış dövlət xadimidir.

**Heydər Əliyev müasir və müstəqil Azərbaycan dövlətinin banisidir. Milli dövlətə, Azərbaycan dövlətçiliyinə xidmət Heydər Əliyevin bütün siyasi fəaliyyətinin əsas prinsipini, mahiyyətini və mənasını təşkil edir.**

İkinci prinsip olan islahatçılıq prinsipinə toxunarkən onu qeyd etmək istərdim ki, Heydər Əliyev bir siyasi lider kimi islahatçı, yenilikçi və reformatordur. İstər 1970-80-ci illər onun Azərbaycana rəhbərlik etdiyi dövrü, istər SSRİ rəhbərliyində olduğu 1982-87-ci illər dövrünü, istər Naxçıvan Ali Məclisinin sədri vəzifəsində işlədiyi 1990-93-cü illər dövrünü, istərsə də 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıtdığı dövrü götürüb təhlil etsək, görərik ki, bu dövrün hər birində Heydər Əliyevin bütün siyasi fəaliyyəti cəmiyyətin ayrı-ayrı sahələrinin yenidən qurulmasından, radikal islahatların aparılmasından ibarət olmuşdur. Bir təşkilatçı lider kimi o qarşıda duran məqsəd və vəzifələri çox aydın gördüyündən həmin məqsəd və vəzifələrə çatmaq üçün lazım olan üsul və vasitələri yaratmağı çox cəsarətlə girişir, lazımi addımlar atır, köhnə iş metodlarını dəyişdirir və yeni dövrün tələblərini təmin edə biləcək kadrları cəsarətlə irəli çəkirdi. Sadalanan dövrlərin heç birində Heydər Əliyev qarşısına qoyduğu məqsədləri yarımçıq qoymayıb, onların hamısını axıra çatdıra bilib.

Heydər Əliyev böyük bacarıqla Azərbaycan xalqının milli mənafelərini əsas götürərək və onun tarixi arzularını reallaşdıraraq əbədiyaşar müstəqil Azərbaycan dövlətinin bünövrəsini qoymuşdur. Onun yaratdığı müasir Azərbaycan dövləti bir hüquqi demokratik dövlət kimi müasir dünyanın bütün sivil dövlətləri tərəfindən çox hörmətlə qəbul edilir.

Heydər Əliyev Azərbaycan xalqına xas olan mənəvi dəyərləri daim yüksək qiymətləndirmiş və onları bütün dünyaya tanıtmışdır. "Xalqımız nikbindir, başını heç vaxt aşağı tutmayıb, sınmayıb, əyilməyib, heç vaxt diz çökməyib", - deyən Heydər Əliyevin gücünün, qüdrətinin mənbəyi də məhz elə öz xalqı olub. Heydər Əliyev heç bir zaman öz xalqına kütlə və yaxud "obıvatel" kimi yanaşmayıb. Əksinə, o həmişə öz xalqının milli qürurunu uca tutub və "xalqımız qəhrəman xalqdır", - deyib. O, öz millətinə və xalqına inandığı kimi, Azərbaycan xalqı da məhz ona inanıb, ona etimad göstərib və bütün taleyini ona etibar edib. Heydər Əliyev isə hər zaman öz xalqının etimadını doğrultmuş bir siyasətçi idi. Biz hamımız, müəllimi Heydər Əliyev olan bir siyasi məktəbin tələbələri zaman-zaman Heydər Əliyevdən öyrənməli, onun bütün fəaliyyət prinsiplərini rəhbər tutmalıyıq.

Bu gün müasir Azərbaycan dövlətçiliyini möhkəmləndirən, onu güclü edən iki mühüm əhəmiyyətli faktor var: Heydər Əliyev ideyaları və xalq-iqtidar birliyi.Əbədiyaşar Heydər Əliyev ideyaları və bu ideyaların və siyasi kursun ən layiqli davamçısı olan, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəhbərliyi altında iqtidarla xalqın birliyi, həmrəyliyi ölkəmizdə möhkəm ictimai-siyasi sabitliyin qorunub saxlanmasının, milli həmrəyliyin və sosial-iqtisadi inkişafın təminatıdır.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il mayın 26-da "Buta" sarayında 28 May-Respublika günü münasibəti ilə keçirilən rəsmi qəbulda etdiyi nitqində demişdir:"Sabitliyin əsl mahiyyəti ondadır ki, xalq dövlət siyasətini dəstəkləsin, xalq vəziyyətlə razı olsun, xalq inkişafla qürur duysun.Biz,bax bu sabitliyi yaratmışıq və Azərbaycanda möhkəm sürən sabitliyin təməlində bu amillər dayanır: –xalq-iqtidar birliyi, bizim siyasətimiz və əldə edilmiş uğurlar.Ən yaxşı təbliğat vasitəsi real həyatdır. Bu gün Azərbaycan çoxşaxəli şəkildə inkişaf edir və bütün istiqamətlərdə böyük uğurlar qazanıb". (Bax: "Xalq qəzeti", 27 may 2017-ci il, №113, səh.2.).

**Azərbaycan bu gün dünyada öz milli maraqlarını layiqincə müdafiə edə bilən, çox böyük hörmət və nüfuza malik olan ölkə kimi tanınır. Bu gün Azərbaycanın bütün beynəlxalq təşkilatlarla və dövlətlərlə çox yaxşı münasibətləri var. Xüsusilə İslam Əməkdaşlıq Təşkilatı və ona üzv olan dövlətlər Azərbaycanın beynəlxalq arenada mənafelərini layiqincə müdafiə edirlər.**

Sosial siyasət sahəsində son illərdə 600-dən artıq xəstəxananın, 3.000-dən artıq orta məktəbin tikilməsi və ya təmir edilməsi nəticəsində əhaliyə göstərilən tibbi xidmətin, təhsilin səviyyəsi xeyli yüksəlmişdir.2016-cı ildə 5 milyondan artıq Azərbaycan vətəndaşı pulzuz tibbi müaniyədən keçmişdir. Məcburi köçkünlər üçün son illər ərzində 100-ə yaxın qəsəbə salınıb.

Bu gün ən qabaqcıl texnologiyaya, silahlara yüksək vətənpərvərlik ruhuna malik olan və istənilən vəzifəni layiqincə yerinə yetirməyə və işğal altında olan torpaqlarımızı Ermənistan silahlı birləşmələrinin təcavüzündən azad etməyə qadir olan güclü Azərbaycan ordusu var. 2016-cı ilin 3-5 Aprel döyüşləri ordumuzun real gücünü bütün dünyaya sübut etdi.

**Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünyada 37-ci yerdədir. Azərbaycan bu gün dünya miqyaslı böyük nəqliyyat və enerji layihələri, o cümlədən, "Cənub Qaz Dəhlizi", "Şahdəniz-2", "Trans-Anadolu Qaz Kəməri-TANAP", "Trans-Adriatik Kəməri-TAP", "Bakı-Tbilisi-Qars" dəmiryolu xətti, Ələt Beynəlxalq Dəniz Limanı" və s. uğurla həyata keçirməkdədir. Bütün bu uğurların və qələbələrin təməlində ümummilli lider Heydər Əliyevin ölməz dövlətçilik və müstəqillik ideyaları dayanır. Müstəqillik bizim üçün ən böyük sərvətdir, biz bu müstəqilliyi qoruyuruq və daim qoruyacağıq.**